ŞİRXAN SƏLİMOV

30954

# AZƏRBAYCAN NEFTİ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ

*(1920–1922-ci illər)*

DOV

Bakı - 2005

Elmi redaktorlar – **Elmira Muradəliyeva,**
*tarix elmləri doktoru, professor*

– **Musa Qasımlı,**
*tarix elmləri doktoru, professor*

Rəyçilər – **Sayad Sayadov,**
tarix elmləri doktoru, professor

– **Cəbi Bəhramov,**
*tarix elmləri namizədi*

**Səlimov Ş.D.** Azərbaycan nefti beynəlxalq münasibətlərdə (1920–1922-ci illər). Bakı, Bakı Universiteti nəşriyyatı, 2005, 160 s.

*Monoqrafiyada Azərbaycan və bəzi xarici ölkələrin mənbə və ədəbiyyatı əsasında 20-ci illərin əvvəllərində neft məsələsinin kəskinləşməsinin səbəbləri, London, Genuya, Haaqa və Paris konfranslarında aparılan müzakirələr araşdırılmış, dövlətlərin mövqeləri izah edilmişdir.*

$S\frac{3271000000}{658(07)-04}4-2005$

ISBN-5-8025-004-8

© Bakı Universiteti nəşriyyatı, 2005

# GİRİŞ

Tarixən Azərbaycan nefti məsələsi beynəlxalq münasibətlərdə, xüsusən regionda baş verən ictimai-siyasi, iqtisadi proseslərdə mühüm yer tutmuş, onun uğrunda müxtəlif dövlətlər arasında gərgin mübarizə getmişdir. Lakin tarixdə ilk dəfə olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük məharəti sayəsində 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətlərinin iştirakı ilə imzalanan «Əsrin müqaviləsi»ndən sonra dövlətlər ölkəmizlə əməkdaşlıq etməyə başlamışlar. Bu əməkdaşlıq Azərbaycan xalqı və dövlətinin strateji maraqlarına cavab verir.

XX əsrdə Azərbaycan nefti məsələsi beynəlxalq münasibətlərdə dəfələrlə müzakirə obyekti olmuşdur. 1920-ci ilin aprelindən sonrakı illərdə beynəlxalq münasibətlərdə Azərbaycan nefti yenidən mühüm yer tutdu. Bunun da bir sıra səbəbləri var idi. London, Genuya və Haaqa konfranslarında keçirilən müzakirələrdə Azərbaycan nefti məsələsi bu və ya başqa formada müzakirə edildi. Bolşevik Rusiyası Şimali Azərbaycanı bir çox amillərə, o cümlədən neftə görə tutaraq Xalq Cümhuriyyətinin varlığına son qoydu. SSRİ-nin yaradılmasınadək olan dövrdə Azərbaycan nefti uğrunda beynəlxalq münasibətlərdə aparılan mübarizə məsələləri indiyədək tarix elmimizdə xüsusi tədqiqat obyekti olmamışdır.

Bütün bunlar 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsinin araşdırılmasını elmi və siyasi baxımdan aktual edir.

Problem araşdırılarkən ilk növbədə Azərbaycan tarixçilərinin əsərlərinə diqqət yetirilmişdir.

1920-1922-ci illərdə Azərbaycan neftinin beynəlxalq münasibətlərdə tutduğu yer məsələlərinə dair bəzi fakt və materiallara bir sıra kitablarda rast gəlinir. Azərbaycanın ayrı-ayrı dövlətlərlə münasibətlərinə həsr edilmiş əsərlərdə neft məsələsinə də toxunulmuşdur. Bu baxımdan Y.Bağırovun sovet-Türkiyə, münasibətlərinə həsr edilmiş əsəri diqqəti cəlb edir[1]. Kitabda 1920-ci

---

[1] Багиров Ю. Из истории советско-турецких отношений в 1920-1922 гг. Баку, Изд. Акад. наук. Аз. ССР, 1965.

# MÜNDƏRİCAT

**GİRİŞ** .......................................................................... 4

**I FƏSİL.** 20-ci illərin əvvəllərində neft məsələsinin kəskinləşməsinin əsas səbəbləri ................................ 21

I.1. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra neft sənayesinin vəziyyəti ............................ 21

I.2. Xarici dövlətlərin Azərbaycanda neft maraqları...... 68

I. 3. Genuya konfransını çağırmaq uğrunda səylər......... 83

**II FƏSİL.** Genuya konfransı və neft ........................................ 97

**III FƏSİL.** Haaqa konfransında neft məsələsi ........................ 123

**NƏTİCƏ** .......................................................................... 143

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT** ............... 148

ilin aprelindən sonra Azərbaycandan Türkiyəyə aparılan neft və neft məhsulları barədə geniş materiallar da verilmişdir.

M.Qasımovun monoqrafiyasında 1920-1922-ci illərdə Azərbaycanın xarici dövlətlərlə diplomatik-siyasi münasibətləri şərh olunmuş, London, Genuya və Haaqa konfransları və b. problemlər araşdırılmış, o cümlədən neft məsələsinə müəyyən diqqət ayrılmışdır[2].

M.Sofiyevin əsərində 1922-1936-cı illərdə sovet-Türkiyə əlaqələrində Cənubi Qafqaz respublikalarının iştirakı, siyasi, ticarət və mədəni əlaqələr araşdırılmışdır[3]. Əsərdə Azərbaycan nefti ilə bağlı məsələlərə də müəyyən qədər toxunulmuşdur.

R. Dadaşovanın dissertasiya işində Avropa dövlətləri ilə Azərbaycanın münasibətləri 1920-22-ci illər çərçivəsində araşdırılmışdır[4].

Ş.Səlimovun bir sıra məqalələri 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə Azərbaycan neftinin tutduğu yerə həsr edilmişdir[5].

---

[2] Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, Qanun, 1998.

[3] Sofiyev M.M. Güney Qafqaz respublikaları sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, Çaşıoğlu, 2000.

[4] Dadaşova R.B. Azərbaycanın avropa dövlətləri ilə münasibətləri (1920-1922-ci illər). Namizədlik dis. avtoreferatı. Bakı, 2003.

[5] Səlimov Ş. Böyük dövlətlərin Genuya konfransını çağırmaq səyləri // Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri, №1. Bakı, ADPU nəşr, 2004, s.578-585; Yenə onun. London konfransında Azərbaycan nefti məsələsi. Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri, №2, Bakı, ADPU nəşr, 2004, s.228-230; Yenə onun «1914-1922-ci illərdə beynəlxalq münasibətlərdə Azərbaycan nefti» probleminin tədrisinə dair // Heydər Əliyev və Azərbaycanda diplomatik kadrların hazırlanmasının aktual problemləri elmi-praktik konfransının materialları // Bakı, ADU., nəşr, 2004, s.114-116; Yenə onun. Genuya konfransı və neft // Azərbaycan MEA Ədəbiyyat İnstitutunun Elmi araşdırmalar toplusu «Hikmət». Bakı, Naftapress, 2004, s.121-133 və s.

R.İ.Berzinin kitabında dünyada neft uğrunda gedən mübarizə məsələləri işıqlandırılmışdır[6]. Müəllif zəngin sənəd və materiallar əsasında ABŞ, İngiltərə, Rusiya və b. arasında neft uğrunda aparılan mübarizəni təhlil etmişdir.

E.Şulsenin kitabında Almaniyanın neft uğrunda mübarizəsi məsələləri işıqlandırılmışdır. Kitab regionda baş verən siyasi prosesləri başa düşmək üçün əhəmiyyətlidir[7].

M.Pavloviçin kitabında neft uğrunda aparılan mübarizə məsələləri araşdırılmışdır[8]. Müəllif neft və onun beynəlxalq əhəmiyyətinə, Böyük Britaniya, ABŞ və Fransanın neft siyasətinə, Genuya konfransında neft uğrunda mübarizə məsələlərinə diqqət yetirmişdir.

1923-cü ildə çap olunmuş digər bir kitabda milliləşdirmədən sonrakı üç il ərzində Bakı neft sənayesinin vəziyyəti əks olunmuşdur[9].

V.A.Qurko-Kryajinin kitabında neft uğrunda dünyada gedən məsələlər araşdırılmışdır[10].

A.P.Serebrovskinin redaktorluğu və Q.L.Pyatakovun ön sözü ilə Azneftin mühəndis və mühasiblər qrupu tərəfindən tərtib edilən kitabda neftin çıxarılması və emalı üzrə sənaye müəssisələrinin təşkili məsələləri araşdırılmışdır. Kitabda neft sənayesinin təşkili zamanı ortaya çıxan problemlər və onların həlli yolları öyrənilmişdir[11].

---

[6] Берзин Р.И. Мировая борьба за нефть. М., Главное Управление по топливу, 1922, с.126.

[7] Шульце Э. Борьба за персидско-месопотомскую нефть. М., Изд. Красная Новь, 1922.

[8] Павлович Мих. Мировая борьба за нефть. М., Молодая гвардия, 1923.

[9] Бакинская нефтяная промышленность за три года национализации (28.V.1920 – 28.V.1923). Баку, изд. Азнефти, 1923.

[10] Гурко-Кряжин В.А. Ближный Восток и великие державы. М., изд. Научной Ассоциации востоковедения, 1924.

[11] Организация промышленных предприятий по добыче и переработке нефти. Составлено группой инженеров и бухгалтеров Азнефти под редакцией А.П.Серебровского, с предисловием Г.Л.Пятакова. М., Л., изд. Совета нефтяной промышленности, 1924.

A.P.Serebrovskinin ABŞ-ın neft və qaz sənayesindən bəhs edən kitabı[12] problemə dair bəzi ümumi məsələləri öyrənmək baxımından əhəmiyyətlidir. Kitabda neft və qaz sənayesinin təşkili, idarə olunması və problemlərinin həlli yolları araşdırılmışdır.

V.Petrov-Uralsevin kitabında[13] sənaye və texnikada neftin rolu, beynəlxalq münasibətlərdə neft siyasəti, neft yataqlarının coğrafi cəhətdən yerləşməsi, neft məhsulları ticarəti və s. bu kimi məsələlər öz əksini tapmışdır. Kitaba ön söz yazan M.P.Pavloviç neft və onun beynəlxalq əhəmiyyətini, Fransa, Böyük Britaniya və ABŞ-ın neft siyasətini, Genuya konfransı və neft uğrunda mübarizə məsələlərini işıqlandırmışdır. Kitabda sənaye və texnikada neftin rolu, neft siyasəti, neft yataqlarının geoloji yerləşməsi, neftin mənşəyi, neftin axtarılması və kəşfi, neft ticarəti və b. məsələlər şərh olunmuşdur.

A.Sivkovun kitabında dünyada neft ehtiyatları, bu karbohidrogen yanacağının çıxarılması, neftin ümumi iqtisadi və hərbi əhəmiyyəti, Standart Oyl və Royal-Detç-Şell arasında gedən mübarizə, neft məsələsində ABŞ-la Böyük Britaniya arasında ixtilaflar, SSRİ nefti və s. məsələlər geniş fakt və materiallar əsasında araşdırılmışdır[14].

B.M.Bondarevskinin kitabında Bakı neft rayonunda vəziyyət təhlil edilmişdir[15].

Sovet dövründə çap olunmuş çoxsaylı məqalələr külliyyatlarından birində sovet hakimiyyətinin ilk illərində neft sənayesinin vəziyyətinə də toxunulmuşdur[16].

SSRİ Başneftin rəisi M.V.Barinovun rəhbərliyi altında ABŞ neft sənayesi ilə tanış olmaq üçün səfərə göndərilmiş, tərkibində Azərbaycan neftayırma zavodunun direktoru A.B.İsgəndərovun

---

[12] Серебровский А.П. Нефтяная и газовая промышленность в Америке. М., ЦУП ВСНХ, 1925.

[13] Петров-Уральцев В. Нефть царица мира. М., Л., Молодая гвардия, 1925.

[14] Сивков А. Мировая борьба за нефть. Л., Редакционно-издательский отдел морских сил РККФ, 1926.

[15] Бондаревский Б.М. Советская нефть. М., ЦУП ВСНХ, 1926.

[16] Четверть века под большевистским знаменем. М., 1932.

da olduğu komissiyanın hazırladığı kitabdan[17] da mövcud problem araşdırılarkən istifadə edilmişdir.

K.A.Pajitnovun kitabında Bakı neft mədənlərinin tarixinə ötəri nəzər salınsa da, 1902-1920-ci illərdə neft sənayesinin vəziyyəti ətraflı şəkildə şərh olunmuşdur[18].

Diplomatiya tarixinin üçüncü cildi[19] də müharibədən sonra yaranmış beynəlxalq şəraiti, neft uğrunda aparılan mübarizəni, bolşevik Rusiyasının yeritdiyi xarici siyasəti öyrənməkdə əhəmiyyətlidir. Burada Genuya və Haaqa konfranslarında müzakirə edilən məsələlər işıqlandırılmışdır.

İ.Leminin kitabında 1919-cu ildən 1925-ci ilədək olan müddətdə Böyük Britaniyanın xarici siyasəti öyrənilmişdir[20]. Müəllif burada Böyük Britaniyanın Cənubi Qafqaz siyasətinə də yer ayırmışdır.

F.D.Volkovun kitabında 1917-1924-cü illərdə Böyük Britaniyanın sovet dövlətinə qarşı siyasəti, o cümlədən neft amili işıqlandırılmışdır[21].

N.L.Rubinşteynin əsərlərində 1921-1925-ci illərdə Sovet Rusiyası və SSRİ-nin Avropa dövlətləri ilə münasibətləri araşdırılmış, keçirilən beynəlxalq konfranslarda neft məsələsinə toxunulmuşdur[22,23,24].

---

[17] Американская нефтяная промышленность. Материалы комиссии Н.В.Баринова. Т.1. М., Нефтяная редакция ОНТИ, 1936.

[18] Пажитнов К.А. Очерки по истории Бакинской нефтедобывающей промышленности (от конца XVII века до Великой Октябрьской революции). М., Л., Государственный научно-техническое издательство нефтяной и горно-топливой литературы, 1940.

[19] История дипломатии. Т.III. Под ред. акад. В.П.Потемкина. М., Л., Госиздат, 1945.

[20] Лемин И. Внешняя политика Великобритании от Версаля до Локарно. 1919-1925. М., 1947.

[21] Волков Ф.Д. Крах английской политики интервенции и дипломатической изоляции Советского государства (1917-1924 гг.). М., Политиздат, 1954.

[22] Рубинштейн Н.Л. Советская Россия и капиталистические государства в годы перехода от войны к миру (1921-1922 гг.). М., Политиздат, 1948.

Akademik İ.İ.Minsin redaktorluğu altında çap olunmuş kitabda 1917-1923-cü illərdə Rusiyanın xarici dövlətlərlə münasibətləri şərh edilmiş, neft amilinin izahına da geniş yer verilmişdir[25].

Ümumiyyətlə, sovet tarixçilərinin əsərlərinin nəzərdən keçirilməsi göstərir ki, 1920-1922-ci illərdə Azərbaycan neftinin beynəlxalq münasibətlərdə tutduğu yer məsələsi indiyədək bu tarixşünaslıqda da xüsusi tədqiqat obyekti olmamışdır, odur ki, bu problemin öyrənilməsi daha çox aktuallıq kəsb edir.

1920-ci ilin aprelindən sonra Türkiyənin Azərbaycana münasibətində neft amilinin rolu, Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yer Türkiyə tarixçiləri M.Gönlübol və G.Sarın əsərlərində müəyyən qədər izah edilmişdir[26]. Salahi R.Sonyelin kitabında[27] isə müəllif Türkiyənin Azərbaycanda maraqları və bolşevik Rusiyasının Azərbaycanı işğal etməsinə Türkiyənin münasibəti məsələlərini izah etmiş, qısa şəkildə Azərbaycanın işğalında neftin amilinin roluna toxunmuşdur.

Monoqrafiya yazılarkən ABŞ tarixçilərinin əsərlərinə də diqqət verilmişdir. 1917-1922-ci illərdə neft uğrunda aparılan mübarizəyə həsr edilmiş kitablardan birinin müəllifi amerikan tədqiqatçısı Lui Fişerdir[28]. Fişer öz təhlilinə birinci dünya müharibəsi illərində Bakı nefti uğrunda mübarizədən başlayır. Müəllif yazır

---

23 Рубинштейн Н.Л. Советская дипломатия в борьбе против изоляции СССР и установление дипломатических отношений с капиталистическими странами. М., Правда, 1947.

24 Рубинштейн Н.Л. Внешняя политика Советского государства в 1921-1925 годах. М., Политиздат, 1953.

25 Советская Россия и капиталистический мир в 1917-1923 гг. Отв. ред. Минч И.И. М., Политиздат, 1957.

26 Gönlübol M. ve Sar C. Atatürk və Türkiyenin Dış Politikası. 1919-1938. İstanbul, 1963, Yenə onların. Olaylara Türk Dış Politikası. 1919-1965. Ankara, 1968.

27 Dr.Salahi R.Sonyel. Türk kurtuluş savaşı ve dış politikası. I. Ankara, Türk Tarih Kurumu Basımevi, 1987.

28 Фишер Л. Империализм нефти. Международная борьба за нефть. Перевод с американского издания. Ст.Вольского. М., Л., Госиздат, 1927.

ki, Türkiyənin Rusiyaya qarşı müharibəsi Qafqazın neft mənbələrini ələ keçirmək məqsədi ilə aparılmışdır. Almanlar öz cəbhələrini və ölkələrini neft məhsulları ilə təmin etmək məqsədi ilə Bakı neftinə can atırdılar. Alman cəbhəsi, təyyarələri, sualtı qayıqları, donanması və fabrikləri mazuta ehtiyac duyurdu. Gürcülərin almanları Qafqaza dəvət etmələri Almaniyanın imkanlarını artırdı. Müəllif yazırdı ki, müharibədə ingilislər də Bakıya diqqət yetirirdilər. Onlar general Denstervil başda olmaqla azsaylı hərbi hissələrini Bakıya göndərdilər. Fişer qeyd edirdi ki, ingilislər Qafqazda öz evlərindəki kimi yerləşdilər. Dövlət bankını, poçtu, teleqraf, məhkəmə, polis və ərzağı öz əllərinə aldılar.

Antisovet üsyanlardan sonra 1922-1925-ci illərdə Qafqaza gələn L.Fişer Nyu-Yorkda nəşr edilən "Nation" qəzetində yazırdı ki, Türkiyə, Almaniya və Böyük Britaniyanın Qafqaza, xüsusən Bakıya və onun neftinə sahib olmaq uğrunda yeddillik mübarizəsi belə qurtardı. Dünya müharibəsinin bu hissəsində Bakının misilsiz rolu şübhəsizdir[29]. Fişer Bakı neftinin Genuya konfransında oynadığı siyasi rolu da təhlil etmişdir.

Qeyd edək ki, Fişer bu kitabını Moskva, Berlin, London və Nyu-Yorkda topladığı materiallar əsasında 1926-cı ildə yazmışdır. O, Almaniya Xarici İşlər Nazirliyinin arxivində və SSRİ Xalq Xarici İşlər Komissarlığının kitabxanasında işləmiş, neft kompaniyalarından rəqəm və materiallar toplamışdır.

ABŞ jurnalisti Ladvel Denninin 1928-ci ildə nəşr olunmuş, 1934-cü ildə rus dilində də buraxılmış kitabında neft inhisarları arasında mübarizə məsələləri şərh edilmişdir. Kitab dünya siyasətində neftin oynadığı rolu öyrənmək baxımından əhəmiyyətlidir[30].

Vaşinqtonda çap edilmiş və rus dilinə çevrilmiş kitabdan da mövcud problem araşdırılarkən istifadə edilmişdir[31]. Kitab bilavasitə tədqiq edilən dövrə aid olmasa da, burada problemə dair bəzi fakt və materiallara rast gəlmək mümkündür.

---

[29] Yenə orada, s.6.

[30] Денни Л. Борьба за нефтяную монополию. М., Л., Соцэкиздат, 1934.

[31] Международный нефтяной картель. М., изд. Иностранной литературы, 1954.

1920-ci ilin aprelindən sonrakı dövrlərdə Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yer və beynəlxalq konfranslarda neft məsələsinin müzakirəsi məsələlərinə də ABŞ tarixçiləri müəyyən qədər diqqət yetirmişlər. Bu baxımdan R.Paypsın tədqiqatları diqqəti cəlb edir[32]. Müəllifin «Rusiyanın ucqar xalqlarına bolşevizm yad idi», «o, qeyri-rus xalqlarının həqiqi mənafeyini əks etdirə bilməzdi», «... marksizm müsəlman əhalisi arasında, ...Bakıda azlıqda idi» fikirləri tarixi reallığı əks etdirir. Müəllif yazır ki, bolşevizmin Azərbaycanda dayaqları zəif idi və bolşeviklərə neft lazım idi[33].

F.Kazımzadənin kitabı Azərbaycanda bolşevik işğalının mahiyyətini, Azərbaycan-Rusiya münasibətlərini, Bakı nefti uğrunda aparılan mübarizəni öyrənmək baxımından qiymətlidir[34]. Müəllif sovet Rusiyasının Qafqazı işğal etməsini çar Rusiyasının işğalları ilə müqayisə edərək göstərir ki, «Qırmızı ordu 1920-1921-ci illərdə Cənubi Qafqaz respublikalarını işğal etdi», «Cənubi Qafqaz Moskvanın müstəmləkəsi kimi idarə olunurdu». F.Kazımzadə bolşeviklərin Azərbaycana yiyələnmələrində neft amilinin mühüm rol oynadığını da xüsusi qabartmışdır.

Ümumiyyətlə, ABŞ tarixçilərinin əsərlərinin nəzərdən keçirilməsi Azərbaycan nefti məsələsinin beynəlxalq münasibətlərdə tutduğu yerin öyrənilməsinin aktual olduğunu göstərir.

Monoqrafiya yazılarkən Böyük Britaniya tarixçilərinin kitablarına da müraciət edilmişdir. E.Q.Devenport və Sidney R.Kukun birgə yazdıqları kitabda müharibənin dünya neft siyasətinə təsiri, ABŞ-ın neft siyasəti, neft məsələsinin beynəlxalq konfranslarda müzakirəsi və bu sahədə siyasi prinsiplər öz əksini tapmışdır[35]. Əsərdə böyük dövlətlərin neft ehtiyatları barədə məlumat olan xüsusi əlavə də verilmişdir.

---

[32] Pipes R. The Formation of the Soviet Union. Communism and Nationalism. 1917-1923. Cambridge, 1964.
[33] Yenə orada.
[34] Kazemzadeh F. The Strugge for Transcaucasus (1917-1921). New-York. Philosophical Library, Oxford, George Ronald, 1951.
[35] Дэвенпорт Е.Г., Сидней Р.Кук. Нефтяные тресты и англо-американские отношения. Пер. с англ. А.Ф.Сперанского. М., изд. Военный вестник, 1925.

Beləliklə, müxtəlif ölkələrin tarixçilərinin əsərlərinin təhlili göstərir ki, 1920-1922-ci illərdə Bakı neftinin beynəlxalq münasibətlərdə oynadığı rol, tutduğu yer və böyük dövlətlərin onun uğrunda mübarizəsi məsələlərinin araşdırılması mühüm elmi aktuallıq kəsb edir.

Azərbaycan Respublikası Dövlət Arxivində (ARDA) 1920-1922-ci illərdə Azərbaycan nefti məsələsinin beynəlxalq münasibətlərdə tutduğu yerə dair çoxlu materiallar vardır. Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığının[36] və Azərbaycan SSR XKS fondlarının materiallarından[37] problemin öyrənilməsində mühüm mənbələr kimi istifadə olunmuşdur.

Azərbaycanın RSFSR hökuməti yanında səlahiyyətli nümayəndəliyinin fondu[38] Rusiyanın Azərbaycana münasibətdə yeritdiyi siyasəti, neft uğrunda mübarizəni və Azərbaycanın müstəqil xarici siyasətini ləğv etməyə yönəlmiş tədbirləri öyrənmək üçün dəyərlidir. Bu sənədlər Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yeri və bu sahədə böyük dövlətlərin siyasətinin mahiyyətini, neftə yiyələnməkdən ötrü aparılan hərbi əməliyyatları öyrənmək üçün əhəmiyyətlidir.

Problemə dair materialların böyük əksəriyyəti Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində saxlanılır. Azərbaycan KP qurultaylarının sənədlərində 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə Azərbaycan neftinin tutduğu yeri və onun uğrunda mübarizəni öyrənmək üçün qiymətli materiallar vardır. Ona görə də müəllif AK(b)P-nin II[39]; III[40,41] və IV qurultaylarının[42] sənədlərindəki Bakı nefti ilə bağlı materialarından geniş istifadə etmişdir. AK(b)PMK-nın 1920-ci il 26 noyabr tarixli[43] plenumunun materialları, habelə neft sənayesi-

---

[36] ARDA, f.28, siy.1.
[37] ARDA, f.410, siy.1.
[38] ARDA, f.414, siy.1.
[39] ARSPİHDA, f. 1, siy. 1, iş 9.
[40] ARSPİHDA, f. 1, siy. 2, iş 1.
[41] ARSPİHDA, f. 1, siy. 2, iş 3.
[42] ARSPİHDA, f. 1, siy. 74, iş 6.
[43] ARSPİHDA, f. 1, siy. 1, iş 75.

nin vəziyyətinə dair 1922-ci il 30 yanvar tarixli[44] qərar diqqətlə öyrənilmişdir.

AK(b)P MK-nın fondunda saxlanılan, 1920-ci ilin iyun-iyul aylarında neft zavodlarında vəziyyətin ümumi mənzərəsini əks etdirən arayışdan[45], Rəştdə xaricilərə məxsus neft məhsullarının müsadirə edilməsinə dair sənəddən[46], Serebrovskinin 1921-ci ilin yanvar ayı üçün Bakı neft sənayesinin vəziyyətinə dair məruzəsindən[47], Azərbaycan neft sənayesində vəziyyət barədə MK bürosunda keçirilən müzakirələrin sənədlərindən[48], neft sənayesində vəziyyəti əks etdirən materiallardan[49], X Ümumbakı partiya konfransının sənədlərindən[50] geniş istifadə edilmişdir.

N.Nərimanov fondunda saxlanılan Gürcüstana neftin göndərilməsinə dair sənədlərdən[51], Azərbaycan SSR hökumətinin GDR hökumətinə neftin buraxılması ilə bağlı məktubundan[52], neft sənayesindəki vəziyyətə dair V.İ.Leninə vurulan teleqramdan[53], Azərbaycanda neftin çıxarılması üzərinə RSFSR hökumətinin nəzarətinin qoyulmasına dair RK(b)P MK siyasi bürosunun qərarından[54], Azərbaycan neft fondu haqqında qısa məlumatdan[55] istifadə olunmuşdur.

Bundan əlavə M.Hüseynov fondunun[56] və İ.Əbilov fondunun[57] materiallarında da Bakı neftinin beynəlxalq münasibətlərdə tutduğu yerə dair geniş materiallar toplanmışdır.

---

[44] ARSPİHDA, f. 1, siy. 74, iş 41.
[45] ARSPİHDA, f. 1, siy. 1, iş 40.
[46] ARSPİHDA, f. 1, siy. 1, iş 100.
[47] ARSPİHDA, f. 1, siy. 2, iş 54.
[48] ARSPİHDA, f. 1, siy. 85, iş 377.
[49] ARSPİHDA, f. 1, siy. 85, iş 378.
[50] ARSPİHDA, f. 1, siy. 22, iş 10.
[51] ARSPİHDA, f. 609, siy. 1, iş 36.
[52] ARSPİHDA, f. 609, siy. 1, iş 51.
[53] ARSPİHDA, f. 609, siy. 1, iş 53.
[54] ARSPİHDA, f. 609, siy. 1, iş 88.
[55] ARSPİHDA, f. 609, siy. 1, iş 98.
[56] ARSPİHDA, f. 1, siy. 122.
[57] ARSPİHDA, f. 1, siy. 5.

Moskva Mərkəzi Arxivindən gətirilmiş və ARSPİHDA-da saxlanılan Bakı neftində ümumi vəziyyəti əks etdirən sənədlərdən[58], neft sənayesinin milliləşdirilməsinə dair 1918-ci il 22 may tarixli dekretdən[59], neftə dair V.İ.Leninə vurulmuş teleqramlardan[60], Tiflis arxivindən gətirilmiş Azərbaycan SSR-nə GDR hökuməti arasında Tranzit müqaviləsinin layihəsindən[61] də problemin araşdırılmasında istifadə olunmuşdur.

Azərbaycan Mərkəzi Neft İdarəsinin Bakı neft sənayesinin 1920-ci il oktyabrın 1-dən 1921-ci il oktyabrın 1-dək olan dövr üçün icmalına həsr edilmiş kitabda neftin kəşfiyyatı, çıxarılması, neft donanması, daşınması və s. barədə məlumatlar verilmişdir[62].

Azərbaycan Mərkəzi Neft İdarəsinin Bakı neft sənayesinin 1921-ci ilin birinci yarısı və 1922-ci il üçün hazırladığı qısa icmal problemin bəzi məqamlarına işıq salmaq baxımından əhəmiyyətlidir[63]. Burada beynəlxalq neft bazarında RSFSR-in vəziyyəti, Azneftin maliyyə imkanları, neft çıxarılması, neftin Rusiyaya daşınması və b. məsələlər fakt və rəqəmlərlə izah edilmişdir.

Azərbaycan Dövlət Birləşmiş Neft Sənayesi (Azneft) tərəfindən hazırlanan kitab 1920-1922-ci illərdə Bakı neft sənayesinin ümumi vəziyyətini öyrənmək baxımından əhəmiyyətlidir[64].

Cənubi Qafqaz haqqında ünvan məlumat kitabında Azərbaycan barədə ümumi informasiya, Cənubi Qafqaz və Rusiyanın xarici ticarəti, o cümlədən neft ticarəti haqqında rəqəmlər verilmişdir[65].

---

[58] ARSPİHDA, f. 268, siy. 16, iş 44.
[59] ARSPİHDA, f. 303, siy. 1, iş 9.
[60] ARSPİHDA, f. 303, siy. 1, iş 15.
[61] ARSPİHDA, Yığıcı fond.
[62] Обзор Бакинской нефтяной промышленности за период 1 октября 1920 г. – 1 октября 1921 г. Баку, 3-я государственная типография, 1921.
[63] Краткий обзор Бакинской нефтяной промышленности за первое полугодие 1921-1922 г. Баку, Издание Главной Конторы Азнефти, 1922.
[64] Бакинская нефтяная промышленность за три года национализации (28 мая 1920 – 28 мая 1923). Баку, 2-я гостипография Азполиграфтреста НКПТ, 1923.
[65] Все Закавказье. Адресно-справочная-книга на 1923 год. Баку, Азполиграфтреста НКПТ, 1923.

Azərbaycan Kommunist Partiyasının çap olunmuş sənədlərinin təhlili 1920-ci ilin aprelindən sonrakı dövrdə ümumi vəziyyəti, Bakı neftinə yiyələnmək üçün böyük dövlətlərin siyasətini öyrənmək üçün əhəmiyyətlidir. Onların dərin təhlili 1920-1922-ci illərdə bolşevik hökumətinin xarici siyasətini, o cümlədən neft sahəsindəki fəaliyyətini öyrənməkdə qiymətli sənədlər hesab edilə bilər[66].

Azərbaycan neft sənayesinə dair Azərbaycan İnqilab Komitəsinin dekretlərinin[67] və bolşevik hökumətinin sərəncam və göstərişlərinin toplandığı külliyyatlar[68] da dəyərli mənbələrdir.

M.Mehdizadənin əsərində Genuya və Haaqa konfranslarında neftə dair məsələlərin müzakirəsi şərh edilmişdir. Bu kitab Azərbaycan nefti uğrunda böyük dövlətlərin apardığı mübarizəni öyrənmək baxımından əhəmiyyətlidir[69].

N.Nərimanovun əsərləri Bakı neft sənayesi və ona dair böyük dövlətlərin siyasətinin mahiyyətini başa düşmək üçün qiymətli mənbə hesab edilə bilər[70,71].

Ümummilli öndər H.Ə.Əliyevin əsərləri[72,73] neftlə bağlı məsələlərin araşdırılması üçün mühüm mənbədir.

---

[66] Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları, MK plenumlarının qətnamə və qərarları. I cild. 1920-1937. Bakı, Azərnəşr, 1987.

[67] Декреты Азревкома (1920-1921). Сборник документов. Баку, Азернешр, 1988.

[68] Собрание узаконений и распоряжений рабочего и крестянского правительства, 1920 г., 5 ноября, №85.

[69] Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, Azərnəşr, 1994.

[70] Нариманов Н. Избранные произведения. Т.2. 1918-1921. Баку, Азернешр, 1989.

[71] Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, Azərnəşr, 1992.

[72] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, Azərnəşr, 1997; II kitab. Bakı, Azərnəşr, 1997; III kitab. Bakı, Azərnəşr, 1997; IV kitab. Bakı, Azərnəşr, 1997; VI kitab. Bakı, Azərnəşr, 1998; VII kitab. Bakı, Azərnəşr, 1998; VIII kitab. Bakı, Azərnəşr, 1998; IX kitab. Bakı, Azərnəşr, 1998; X kitab. Bakı, Azərnəşr, 2002; XI kitab. Bakı, Azərnəşr, 2003.

Azərbaycan Respublikasının Prezidentinin katibliyi tərəfindən hazırlanmış iki hissədən ibarət iri həcmli kitab çağdaş dövrdə Azərbaycan dövlətinin neft strategiyasını başa düşmək baxımından qiymətlidir[74].

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin monoqrafiyası problemi öyrənməkdə mühüm əhəmiyyətə malikdir[75]. Zəngin arxiv materialları və digər qaynaqlar əsasında yazılmış kitabda Xəzər bölgəsinin qədim zamanlardan müasir günlərə qədər siyasi və iqtisadi inkişafı dərindən, hərtərəfli araşdırılmışdır.

Bakı neft sənayeçiləri qurultayı şurasının nəşri olan "Neftyanoe delo" jurnalında dərc olunmuş məqalələrdən və statistik materiallardan istifadə edilmişdir[76].

Monoqrafiya yazılarkən "Bakinski raboçi" və "Kommunist" qəzetlərinin 1920-1922-ci ildəki saylarında çap olunmuş materiallardan istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, bu dövrün bir sıra məsələlərinə münasibətdə dövri mətbuat materialları ilə arxiv sənədləri ziddiyyət təşkil edir. Dövri mətbuat materialları daha çox təbliğat xarakteri daşımış, neft sənayesini bərbad vəziyyətə salmasına baxmayaraq, bolşevik hökumətinə etimad yaratmağa və bütün işlərin guya tamamilə rəvan getdiyinin nümayişinə xidmət etmişdir. Bundan fərqli olaraq arxiv fondlarında «tamamilə məx-

---

[73] Əliyev H.Ə. Azərbaycan beynəlxalq aləmdə. (Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1993-1994-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I cild. Bakı, Şuşa nəşriyyatı, 1996; II cild (Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1995-1996-cı illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, ABU nəşriyyatı, 1997; III cild (Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, ABU nəşriyyatı, 1998; IV cild (Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1998-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar). Bakı, ABU nəşriyyatı, 1999.

[74] Heydər Əliyevin neft strategiyası Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə; II hissə. Bakı, Nurol Printing And Packaging industry Inc., 2001.

[75] Алиев И. Каспийская нефть Азербайджана. М., Известия, 2003.

[76] «Нефтяное дело», 1920, №№1; 3; 4; 17-18; 19-20.

fi» qrifi ilə saxlanılmış sənədlər real vəziyyəti daha düzgün və dolğun əks etdirir. Məhz buna görə də 1920-1922-ci illərdə Azərbaycan nefti məsələsinin beynəlxalq münasibətlərdə tutduğu yerin dövri mətbuat materialları əsasında araşdırılması birtərəfliyə gətirər. Elə bu səbəbdən də müəllif dövri mətbuat materiallarının öyrənilməsinə və onların arxiv, digər sənədlərlə tarixi müqayisəsi metodunun köməyi ilə araşdırılmasına üstünlük vermişdir.

Sovet dövlətinin xarici dövlətlərlə bağladığı müqavilə və notalarının toplandığı sənədlər külliyyatları problemi araşdırmaq üçün qiymətli mənbədir[77,78,79,80]. Bu külliyyatlarda Azərbaycan nefti uğrunda aparılan mübarizəyə dair çoxlu materiallar vardır.

1920-1922-ci illərdə keçirilən beynəlxalq konfranslarda Azərbaycan nefti ilə əlaqədar müzakirələri araşdırmaq üçün ən mühüm mənbə həmin konfransların materiallarıdır[81]. Bu materiallar Azərbaycan nefti məsələsinin dünya siyasətində mühüm yer tutduğunu sübut edir[82].

Başqa bir sənədlər məcmuəsində Genuya konfransına vahid nümayəndə heyəti ilə getmək barədə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin qərarı verilmişdir[83].

Sovet dövlətinin xarici siyasətinin mahiyyətini və neft məsələsinə münasibətini başa düşmək üçün müntəxəbat xarakterli sənəd və materialların toplandığı kitab əsas mənbələrdən biridir.

V.İ.Leninin sovet xarici siyasəti haqqında fikirlərinin toplandığı məcmuə neftə dair məsələləri öyrənmək baxımından da mühümdür[84]. Leninin Mustafa Kamal paşaya 1921-ci il 7 yanvar

---

[77] Документы внешней политики СССР. Т.3. М., Политиздат, 1961.
[78] Документы внешней политики СССР. Т.4. М., Политиздат, 1962.
[79] Документы внешней политики СССР. Т.5. М., Политиздат, 1963.
[80] Документы внешней политики СССР. Т.6. М., Политиздат, 1964.
[81] Сборник действующих договоров, соглашений и конвенций звключенных с иностранными государствами. Вып.III. М., 1922.
[82] Материалы Гэнуезской конференции. Вып.1, Полный стенографический отчет. М., изд. НКИД, 1922; Гаагская конференция. Полный стенографический отчет. М., изд. НКИД, 1922.
[83] Внешняя политика СССР. Сборник документов. Т.II. (1921-1924 гг.). Отв. ред. С.А.Лосовский. М., 1944.
[84] В.И.Ленин о советской внешней политике. М., Политиздат, 1979.

tarixli teleqramı, Türkiyə ilə danışıqlar barədə fikirləri, Genuya konfransında nümayəndə heyəti üzvləri üçün layihələri, Haaqa konfransında bolşevik nümayəndə heyətinin vəzifələri haqqında qeydləri və b. Azərbaycan nefti ilə əlaqədar məsələləri öyrənməkdə əhəmiyyətlidir.

Eyni zamanda 1920-1922-ci illərə aid "Pravda" və "İzvestiya" qəzetlərinin materiallarından da istifadə olunmuşdur.

Mustafa Kamal paşanın nitqləri, teleqramları, məktubları və kitablarında[85,86,87,88] Türkiyənin xarici siyasətinə, o cümlədən Qafqazda siyasətinə, Azərbaycan neftinə dair sənədlər verilmişdir.

Tanınmış siyasi xadim Rıza Nurun xatirələrində[89] dünya müharibəsinin başlanması, Osmanlı imperiyasının ona qoşulması, 1920-ci ildən sonra Rusiya-Türkiyə münasibətlərində iqtisadi amilin roluna dair fikirlər vardır.

Monoqrafiya yazılarkən Böyük Britaniyanın xarici siyasətinə dair sənəd və materiallardan istifadə olunmuşdur. 1917-1921-ci illərdə Böyük Britaniyanın Cənubi Qafqaz siyasətini öyrənmək üçün qiymətli mənbələrdən biri 1922-ci ildə Böyük Britaniya Xarici İşlər Nazirliyinin Cənubi Qafqazda baş verən hadisələr barədə tərtib etdiyi icmaldır. İcmalın müəyyən hissələri sovet tarix jurnallarında nəşr olunmuşdur. Ekspedisiya korpusunun generalı Corc Milnin "Böyük Britaniya müdafiə nazirliyinin Qara dəniz orduları baş komandanı, general, ser C.F.Milndən aldığı" Türkiyə ilə barışıq imzalandığı andan türk sülh müqaviləsi (1920-ci il 10 avqust) imzalanana qədər onun tabeliyində olan orduların hərəkəti barədə" adlı məruzəsi Böyük Britaniyanın Azərbaycan neftinə dair siyasətini öyrənməkdə əhəmiyyətlidir. Sənəddə deyilir ki, 1918-ci il oktyabrın 30-dan 1920-ci ilin avqustunadək general Milnin səlahiyyətləri Qara dənizə, Qafqaza, Xəzər dənizinə, Xəzərətrafı vilayətlərə, Mərvə və Türkmənistana qədər ərazini

---

[85] Кемаль М. Путь новой Турции. 1917-1927. М., 1934.

[86] Atatürkün söylev ve demecleri. Cilt 1. İstanbul, AKDTUK Atatürk Araştırma Merkezi, 1999.

[87] Кемаль М. Избранные речи и выступления. М., Прогресс, 1966.

[88] Kemal M. Nutuk-söylev. II cilt. 1920-1927. Ankara, TTKBE, 1987.

[89] Riza Nur. Milli Kiyam. Milli Mucadelerin iç yüzü. Hazırlayan Yalçın Toker. Istanbul, Toker Yayınları 1994, s.18-19.

əhatə edirdi. Bu məruzə 1921-ci il yanvarın 4-də "London qəzeti"nin dördüncü əlavəsində nəşr edilmişdir[90]. Məruzədə Qafqazda və Xəzər ətrafında cərəyan edən hərbi-siyasi proseslər, ingilis ordularının qarşısında duran ümumi siyasi vəzifələr, rus ordularının çıxarılması, Azərbaycan neft sənayesinin vəziyyəti, idarə olunması və neft boru kəmərinin işləməsi, Xəzər dənizində ingilislərin hökmranlığı, milli münaqişələrə qoşulmaları, Bakının tutulması və bir sıra başqa məsələlər şərh edilmişdir. Məruzədən aydın olur ki, Azərbaycan barəsində Böyük Britaniyanın başlıca məqsədi neftə sahib olmaq, Xəzər dənizi üzərində nəzarəti ələ keçirmək və Mərkəzi Asiyaya gedən yolu tutmaq olmuşdur.

Monoqrafiyada 1918-ci ildən 1922-ci ilədək Azərbaycanda baş vermiş hadisələrə, ingilislərin neft maraqlarına dair Böyük Britaniya Xarici İşlər Nazirliyi arxivinin materiallarından[91] istifadə edilmişdir[92].

Monoqrafiya yazılarkən ABŞ xarici siyasət sənədlərindən[93] istifadə edilmişdir[94]. Bu sənədlərdə ABŞ-ın neft maraqları, Genuya və Haaqa konfranslarında müzakirə edilən məsələlərə münasibəti əksini tapmışdır.

Kitab yazılarkən fransız mənbələrinə də müraciət edilmişdir. 1914-1922-ci illərdə Fransanın Azərbaycanda neft maraqlarını öyrənmək üçün Fransanın dövlət xadimləri və hərbçilərinin xatirələri əhəmiyyətlidir. Əvvəlcə Fransa prezidenti, sonra isə baş

---

[90] О событиях на Кавказе и в Средней Азии. Донесение генерала Джорджа Мильна // Гумилев Л. Каспийский транзит. В 2-х томах Т. 2. М., Ди-Дик, 1996, с.310-346.

[91] Rublic Foreign Office. Foreign Office Papers, File 371/6280, dos. E 8378/8378/58. Outline of Events in Transcausasia from the Beginning of the Russian Revolution in Summer 1917 to Arril 1921).

[92] Böyük Britaniya Xarici İşlər Nazirliyinin arxiv materiallarını prof. M.Qasımlı təqdim etmişdir.

[93] ABŞ xarici siyasət sənədlərini prof. M.Qasımlı təqdim etmişdir.

[94] Papers Relating to the Foreign Relations of the United States. 1921. Vol.II. Washington, U.S. Government Printing Office, 1936; 1922. Vol.II. Washington, U.S.Government Printing Office, 1938.

naziri olmuş Raymon Puankarenin xatirələrində[95] problemə dair maraqlı məlumat vardır. 1920-1922-ci illərdə Fransa dövlətinin xarici siyasətini, fransız hökumətinin Azərbaycan nefti barəsində niyyətlərini öyrənmək üçün bu xatirələrin əhəmiyyəti böyükdür. Qeyd etmək lazımdır ki, Puankare 1922-ci ilin yanvarında baş nazir kimi parlamentdə etdiyi ilk məruzəsində Azərbaycan neftinin beynəlxalq münasibətlərdə oynadığı rola da xüsusi yer ayırmışdı.

Bütün bunlar göstərir ki, 1920-1922-ci illərdə beynəlxalq münasibətlərdə Azərbaycan nefti məsələsinin tutduğu yerin araşdırılması aktualdır. Ona görə də monoqrafiyada əsasən aşağıdakı məsələlər təhlil edilmişdir:

- Azərbaycan sovetləşdirildikdən sonra neft məsələsinin beynəlxalq münasibətlərdə kəskinləşməsinin əsas səbəblərini nəzərdən keçirmək;

- London, Genuya, Haaqa və Paris konfranslarında və ikitərəfli görüşlərdə Azərbaycan nefti ilə bağlı məsələnin müzakirəsini və nəticələrini öyrənmək.

Ümumiyyətlə, monoqrafiyada 1920-ci ilin aprelindən 1922-ci ilin dekabrında SSRİ yaradılana qədərki illərdə neftin beynəlxalq münasibətlərdə oynadığı rol tədqiq edilir. Bolşevik Rusiyası tərəfindən Azərbaycanın işğal edilməsində neft amili mühüm rol oynamışdı. Bundan sonra Azərbaycanda maraqları olan dövlətlər və iri neft şirkətləri neft sahələrini qaytarmaq və ya problemi başqa şəkildə həll etmək üçün müxtəlif yollar axtarmağa başladılar. London, Genuya və Haaqa konfranslarında neft məsələsi konsessiyalar adı altında müzakirə edildi, Paris konfransında sovet, o cümlədən Azərbaycan neftinə dair qərar qəbul olundu.

---

[95] Пуанкаре Р. На службе Франции. Воспоминания. 1914-1918 гг. Т. 1-2. М., 1936.

# I FƏSİL

## 20-ci İLLƏRİN ƏVVƏLLƏRİNDƏ NEFT MƏSƏLƏSİNİN KƏSKİNLƏŞMƏSİNİN ƏSAS SƏBƏBLƏRİ

### I.1. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra neft sənayesinin vəziyyəti

1920-ci ilin aprelində Şimali Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edilərək sovetləşdirilməyə başlandı. İngilis mənbələrində deyildiyi kimi, 6 min bolşevik dəstəsi Xaçmazdan Azərbaycan ərazisinə soxuldu. Bu, mahiyyətinə görə həm də Azərbaycan neft uğrunda mübarizənin yeni mərhələsinin başlanması demək idi. Bir çox tədqiqatçılar da Rusiyanın Cənubi Qafqaza yenidən qayıtmasında neft amilinin rolunu xüsusi qeyd edirlər. Məsələn, rus tədqiqatçısı A.Sivkov bolşeviklərin Cənubi Qafqaza yiyələnməsindən sonra neft uğrunda mübarizədə yeni mərhələnin başlandığını yazır[96]. Azərbaycan tarixçisi P.Darabadi qeyd edir ki, 1920-ci il mayın 1-i üçün bütün Bakı neft sənayesi rayonu tutuldu[97]. N.Ağamalıyeva isə yazır ki, Sovet Rusiyası hər vasitə ilə hərbi-strateji cəhətdən çox mühüm olan regionu, ilk növbədə Bakı neft-sənaye rayonunu ələ keçirməyə, Yaxın və Orta Şərqin qapısında möhkəmlənməyə çalışırdı[98].

Qeyd etmək lazımdır ki, XX əsrin 20-ci illərinin əvvəllərində neft uğrunda mübarizənin təməlində üç əsas səbəb dayanmışdı: dünya miqyasında neftə olan tələbatın güclənməsi; ABŞ-da neft ehtiyatlarının azalması; neft krallarının daha çox varlanmaq məqsədilə yeni-yeni sahələrə sahib olmaq iddiaları. Bu üç səbəb

---

[96] Sivkov A. Göstərilən əsəri, s.100.

[97] Дарабади П. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, Елм, 1991, с.162.

[98] Ağamalıyeva N. Bakıda aprel çevrilişi və 1920-ci ildə Azərbaycanın RSFSR XI ordusu tərəfindən işğal olunması // Azərbaycan Cümhuriyyəti, s.292.

E 3590

RUSSIA. 5

MILITARY. 1920

Decypher: Mr. Luke (Batoum) April 27th, 1920.

D. 2.35 a. m. April 28th. 1920.

R. 5.55 p. m. " "

No. 218 Very Urgent.

-----oOo-----

At noon today Azerbaijan Government informed Political Officer, Batoum, that 6,000 Bolshevik troops had penetrated Azerbaijan territory as far as Khachmas.

Government feared this fact might provoke serious internal Bolshevik disturbances in Baku town unless, first, they recalled their troops from Armenian frontiers for which purpose they require guarantee against possible Armenian (? one group omitted.)

Secondly, Georgia sent troops to Baku.

Government requested Allied representatives here to use good offices with Georgian and Armenian Governments to secure Georgian co-operation and Armenian guarantee.

After consulting French and Italian colleagues I invited them, as well as representatives of local Governments concerned to meet at British Mission forthwith. Georgian (? army omitted) agreed to co-operate provided Azerbaijan army also available and I understand (one group undecypherable) has already despatched two battalions and one armoured train to Baku. Armenian representative unable to give guarantee without referring matter to Erivan but has transmitted joint

telegram

bir-biri ilə sıx bağlı olaraq neft məsələsinə təkcə iqtisadi deyil, həm də siyasi məna verirdi. Belə bir fakt maraqlıdır ki, 1911-ci ildə dünyada neft çıxarılması 1.326 milyon pud, 1919-cu ildə 3.126 mln. pud, 1920-ci ildə isə 5.000 mln. pud olmuşdu və ya son 20 ildə dünyada neft çıxarılması faktiki olaraq 247% artmışdı. 1913-1920-ci illərdə Meksikada neftin çıxarılması 469%, ABŞ-da 527% artmış, Rusiyada isə 65% azalmışdı[99]. Bu qədər neft sənayedə, dəmiryolunda və donanmada istifadə edilirdi. Neftə olan ehtiyac getdikcə daha çox güclənirdi.

Sovet Rusiyası Azərbaycanı işğal etdikdən sonra bolşevik hökumətinin 1920-ci ilin mayında verdiyi dekretlə Bakı neft sənayesi milliləşdirildi. May ayı üçün olan məlumata görə Bakıda 1.465 quyudan istifadə edilirdi[100]. Milliləşdirmənin ağır nəticələri qısa müddətdə özünü göstərdi. Neft hasilatı aşağı düşdü. 1920-ci ilin aprelində 17,2 mln., iyunda 14,9 mln., sentyabrda isə 10,8 mln. pud neft çıxarılmışdı. Neftayırma zavodunda 1920-ci ilin iyun ayında 6,9 mln., iyul ayında 7,9 mln., sentyabrda isə 4,8 mln. pud neft məhsulu emal edilmişdi. Milliləşdirmə neft sənayesini bərbad hala saldı[101]. 1920-ci ilin sonunadək Rusiyaya Bakıdan 9,9 milyon ton neft daşınmışdı[102].

Sovet hökuməti tərəfindən milliləşdirilən neft çıxaran şirkətlərinin sayı 209 idi. Son siyahıda isə onlardan yalnız 160-ı qaldı. Digərləri isə fəaliyyətlərini dayandırdı[103]. «Bolşevikləşməyə qədər Bakıda 300-ə qədər neftçıxarma müəssisəsi fəaliyyət göstərmişdir» fikri dəqiq deyildir, belə ki, bu sayda neft müəssisəsi əslində Bakıda mövcud olmamışdır[104].

---

[99] Berzin R.İ. Göstərilən əsəri, s.5.
[100] Бондаревский Б.М. Göstərilən əsəri, s.156.
[101] Yenə orada, s.157.
[102] Yasin Aslan. Azerbaycan tam bağımsızlık yolunda. Ankara, Tamer Ofset matbaaçılık, 1992, s.71, s.118.
[103] Пажитнов К.А. Göstərilən əsəri, s.125.
[104] Четверть века…, с.59.

Списокъ судовъ Товарищества Братьевъ Нобель.

| названіе судна | емкость въ тысяч пуд. | какимъ продук. | приблизител. готовность судна. | Примѣчаніе. |
|---|---|---|---|---|
| Теплоходы: | | | | |
| Эман. Нобель | 210 | мазутомъ | 10 Апрѣля | въ докѣ. |
| К. И. Хагелинъ | 210 | " | готовъ, но | Сломанъ валъ; одна машина для передняго и задн. хода, считает опасн. для самостоятел. маневро при подходѣ къ пристанямъ. |
| Зороастръ | 120 | керосин. | 10 - 15 Апр. | Готова только одна машина. |
| Галилей | 120 | " | 10 - 15 Апр. | |
| Роббель | 105 | мазутом | 1 Мая | Сломанъ валъ. |
| Пароходы: | | | | |
| Владимиръ | 86 | мазутомъ | 5 Апрѣля | |
| Варвара | 88 | " | 5 Апрѣля | |
| Искендеріе | 89 | " | Готова | Реквизирована, отправлена въ Ашуръ-Адэ. |
| Арго | 80 | " | 10 Апрѣля | 1 котелъ; ремонтъ 2 котла. |
| Сокъ /арендов/ | 98 | " | 10 - 15 Апр. | |
| Линне | 56 | " | 15 Апрѣля | |
| Коранъ | 56 | " | 20 Апрѣля | |
| Талмудъ | 56 | маслен. | готовъ | |
| Сократъ | 56 | керосин | 20 Мая | |
| Дарвинъ | 56 | маслен. | готовъ | Взятъ военнымъ портомъ для пр[illegible] вращенія въ военное судно. |
| Сергѣй | 86 | керосин | 10 Апрѣля | |
| Павелъ | 83 | керосин | 5-10 Мая | Необходимъ ремонтъ котл. и нас[illegible] |
| Шаланды: | | | | |
| Брама | 72 | мазут. | 20 Апрѣля | Не готовъ котелъ. |
| Магометъ | 72 | " | 10 Апрѣля | Устройство палубъ не готово |
| Вѣра | 86 | " | 1 Апрѣля | Не готовы котлы. |
| Кострома | 97 | " | 15 Апрѣля | " " " |
| Любовь *[illegible]* | 92 | " | 15 Апрѣля | Ремонтъ котла; подъ сухимъ гр[illegible] |
| Будда *"* | 50 | | 10 Апрѣля | |
| Паров. Хоросанъ | 38 | мазут. | готовъ. | |
| Баркасы: | | | | |

"Пиръ-Аллаги" перевозка пассажировъ и провизіи на о. "Святой".

Баку - готовъ. Маневка реквизирована военнымъ портомъ.

Эдечка и Эстъ будутъ готовы въ Іюнѣ.

*25/III 918г. [signature]*

Azərbaycan SSR-in Moskvadakı fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski 1920-ci il sentyabrın 20-də Leninə yazırdı ki, indi Şərqdə ümumiyyətlə, vəziyyət böhranlıdır. O bildirirdi ki, neft sənayesinin milliləşdirilməsi xalqı və ziyalıları qorxutmur. İri sənayedə hər şeydən əvvəl, xarici kapitalistlər və kiçik müsəlman qrupları maraqlıdır[105].

Qeyd etmək lazımdır ki, əvvəllər Avropa ölkələri və Rusiya ilə əlaqəli olmuş neft sənayesi bərbad hala düşdü. Sovet hökumətinin onu bərpa etməyə imkanları yox idi. Bunu kommunist xadimlərinin özləri də etiraf edirdilər. Azərbaycan KP-nin 1921-ci il fevralın 11-18-də keçirilmiş III qurultayında Serebrovski deyirdi ki, bizim Azərbaycan nefti sənayesi Qərbi Avropa və Rusiya ilə bağlıdır. Gənc kommunist respublikası öz sənayesini bərpa etmək gücündə deyildir[106].

Belə şəraitdə Azneft məhsulunun heç cüzi bir hissəsini də xaricdə özü sata və lazım olan məhsulları ala bilmirdi. Onun İrana və İstanbul vasitəsi ilə Avropaya məhsullarını göndərməyə hüququ yox idi. Hər şey RSFSR Xalq Xarici Ticarət Komissarlığının ixtiyarına keçmişdi. Belə şəraitdə neft sənayesini inkişaf etdirmək xeyli çətin idi. 1920-ci il aprelin 28-dən 1921-ci il aprelin 1-dək Azneftin gəlirləri 475.592.010.437 rubl təşkil etmişdi[107]. Bunun yalnız 63 milyard rubla yaxını Azərbaycana mərkəz tərəfindən verilirdi. Bu isə bütün pul gəlirlərinin 13,23%-ni təşkil edirdi[108].

1920-ci ildə Azərbaycanda 135.558.000 pud neft çıxarılmışdı[109]. Serebrovskinin fikrincə, təkcə Bakıda deyil, Azərbaycanın 16 qəzasında zəngin faydalı qazıntılar mövcud idi[110]. Neftlə yanaşı bolşeviklər digər təbii sərvətlərə də yiyələnmişdilər.

---

105 ARSPİHDA-nın yığıcı fondu.

106 ARSPİHDA, f.1, siy.2, iş 1, iş 263-264.

107 Краткий обзор Бакинской нефтяной промышленности за первое полугодие 1921-1922 г., с.10.

108 Yenə orada.

109 Yenə orada, v.274.

110 Yenə orada, v.276.